# Milli Konstitusiyamız: hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu prosesinin mükəmməl bazası

**Noyabr ayının 12-də Azərbaycanın müstəqil dövlət kimi ilk Konstitusiyasını qəbul etməsindən 23 il ötür. Xalqımızın dahi oğlu, Azərbaycanın dövlət müstəqilliyinin xilaskarı Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk milli Konstitusiyamız 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilərək noyabrın 27-də qüvvəyə minib.**

Sözsüz ki, Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri idi. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəddir.

Qəbul edilən ilk Konstitusiyada insan və vətəndaşların hüquq və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi kimi bəyan edildi, hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoyuldu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik kimi ali dəyərlər Konstitusiyanın başlıca




mahiyyətini təşkil edir. Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratik dəyərlərə sadiqliyinin ən bariz göstəricisidir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratmaqla onun inkişafına güclü təkan verdi. Konstitusiya qəbul edilən gün parlamentdə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. Dahi şəxsiyyət Heydər Əliyevin 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Ötən 23 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli əlavə və dəyişikliklər edilib. 2002-ci ildə referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu ildə isə 25 maddəsinə 30-dan artıq əlavə və dəyişikliklər edildi. Bu yeniliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi. Konstitusiyaya sonuncu əlavə və dəyişikliklər Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrında keçirilən referendumla edildi. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlmişdi. Bu gün tam əminliklə deyə bilərik ki, Konstitusiyamız Avropanın ən mükəmməl konstitusiyaları arasındadır.

Danılmaz faktdır ki, Konstitusiyamızın müddəalarından irəli gələrək dövlətin ali məqsədi sayılan hüquq və azadlıqların, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində ölkə başçısı Prezident İlham Əliyev tərəfindən çoxşaxəli islahatlar aparılır. Vətəndaş hüquqlarının daha asan həyata keçirilməsini təmin etmək məqsədilə yeni mexanizmlər, təsisatlar yaradılır və bütün bunlar da insanlara öz konstitusion hüquqlarını sərbəst və maneəsiz şəkildə həyata keçirməyə imkan yaradır.

**Taleh Bağırov,**
***"İki sahil"***



İki sahil.- 2018.- 9 noyabr.- S.4.